*Yeni Azərbaycan Partiyasının adı ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır. Partiya Heydər Əliyevin ətrafında yaradılmışdır, onun siyasi təcrübəsi, bilikləri, xalq qarşısında göstərdiyi xidmətlər, Naxçıvanda çalışdığı dövrdə göstərdiyi əsl vətənpərvərlik və öz xalqına olan sadiqlik Azərbaycanın mütərəqqi insanlarını onun ətrafında birləşdirdi.*

***İlham ƏLİYEV***
***Azərbaycan Respublikasının Prezidenti,***
***Yeni Azərbaycan Partiyasının sədri***



*Azərbaycanda vəziyyətin get-gedə ağırlaşdığını, çətinləşdiyini görərkən və bu partiyanın yaranması ilə əlaqədar mənə müraciət edən ziyalıların, respublikanın tanınmış adamlarının – ölkəmiz, xalqımız, torpağımız üçün ürəyi həqiqətən yanan adamların iztirabını duyarkən, onların xalqımız, ölkəmiz üçün bir iş görmək arzusunu hiss edərkən mən tədricən belə bir partiyanın yaranmasına kömək etməyə razılığımı verdim. Sonra mənə 91-lərin müraciəti gəldi və mənim müraciətə cavabım oldu.*

***Heydər ƏLİYEV***
***Ümummilli lider***

# Regionun ən böyük siyasi təşkilatı

***Ulu öndərin "bu günün, sabahın və gələcəyin partiyası" adlandırdığı Yeni Azərbaycan Partiyası otuz ildir ki, ictimai-siyasi həyatımızın uğur yoluna işıq saçır, dəqiq hədəfləri göstərir və yeni-yeni qələbələrimizə yön verir. Zamanın sınaqlarından alnıaçıq və üzüağ çıxan bu partiyanın məramnaməsində qeyd olunur ki, YAP Azərbaycan Respublikasının Konstitusiyası və qanunvericiliyi çərçivəsində, özünün Nizamnaməsi və Proqramı əsasında – Azərbaycanda hüquqi dövlət, sivil vətəndaş cəmiyyəti, sabit və sosialyönümlü iqtisadiyyat, azərbaycançılığı ehtiva edən milli birlik yaratmaq məqsədilə birgə fəaliyyət göstərən vətəndaşların birləşdiyi parlament tipli siyasi partiyadır.***

YAP-ın ötən il martın 5-də keçirilmiş növbədənkənar 7-ci qurultayında qeyd olunub ki, 30 ilə qədər erməni işğalı altında qalmış Azərbaycan torpaqları Yeni Azərbaycan Partiyasının sədri, Azərbaycan Respublikasının Prezidenti, müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə 44 günlük Vətən müharibəsində azad edilib, Azərbaycanın çoxəsrlik tarixinin ən şərəfli səhifələrindən biri yazılıb, xalqımızın və millətimizin qüruru, adı ucalıb.

2005-ci ilin martında Yeni Azərbaycan Partiyasının 3-cü qurultayında yekdilliklə partiyanın sədri seçilən cənab İlham Əliyev ulu öndərin quruculuq və inkişaf xəttinə sədaqət nümunəsi göstərir. Bu gün Azərbaycanın beynəlxalq aləmdə nüfuzunun ən yüksək zirvəyə çatması, ölkəmizin sosial-iqtisadi və hərbi-siyasi yüksəlişi məhz bu yolun ölkə Prezidenti İlham Əliyev tərəfindən layiqincə, uğurla davam etdirilməsinin nəticəsidir.

Partiyanın sədri cənab İlham Əliyev VII qurultaydakı giriş nitqində bildirib ki, əvvəlki qurultaydan keçən üç il ölkəmiz üçün, bölgəmiz üçün həlledici olmuşdur. Bu müddətdə başda Vətən müharibəsindəki parlaq qələbə olmaqla, ölkəmizin həyatında bir çox önəmli hadisələr baş vermişdir. Prezident və parlament seçkiləri keçirilmiş, ölkədə gedən islahatlar yeni mərhələyə qədəm qoymuş, ictimai-siyasi iqlim daha da sağlamlaşdırılmışdır: "İkinci Qarabağ müharibəsinin nəticələri də bölgə üçün yeni reallıqlar yaratmışdır. Bölgədə yeni əməkdaşlıq imkanları yaranmışdır. Uzunmüddətli sülhün təmin edilməsi üçün çox önəmli şərtlər yaradılmışdır və eyni zamanda, ölkəmizdə də yeni dövrə qədəm qoymaq üçün yeni imkanlar yaranıb".

Prezident İlham Əliyev yekun nitqində VII qurultayı ölkəmizin ictimai-siyasi həyatında önəmli hadisə saydığını söyləyib, partiyanın rəhbər orqanlarına seçilmiş bütün siyasi əqidədaşlarına yeni uğurlar arzulayıb və bildirib ki, Yeni Azərbaycan Partiyasının Cənubi Qafqazın ən böyük siyasi təşkilatı kimi böyük ənənələri var. 2022-ci ildə partiyanın 30 illik yubileyi keçiriləcək. YAP yeniləşmiş formatda daha fəal olacaq, ölkə qarşısında duran problemləri daha böyük fədakarlıqla icra edəcək. Hər bir üzv ümumi işə öz layiqli töhfəsini verəcək ki, partiya bundan sonra da ölkəmizin aparıcı siyasi qüvvəsi, nailiyyətlərimizin bayraqdarı olaraq qalsın.

Cənab İlham Əliyev qurultay ərəfəsində bir sıra dost partiyanın YAP-a qoşulmasını çox önəmli, əlamətdar hadisə kimi dəyərləndirib: "Bu da siyasi sistemimizin təkmilləşdirilməsi istiqamətində atılan növbəti addımdır və eyni zamanda, göstərir ki, partiyamızın həm məramı, həm proqramı, fəaliyyəti və əldə etdiyi nailiyyətlər dost partiyalar üçün də cəlbedicidir".

Qurultayda partiyanın yeni Nizamnaməsi qəbul olunub, 40 nəfərdən ibarət tərkibdə İdarə Heyəti, həmçinin 35 nəfərlik Veteranlar Şurası seçilib. Eyni zamanda, altı siyasi partiyanın– Azərbaycan Xalq Demokratik Partiyası, Azərbaycan Kəndli Partiyası, Milli Qurtuluş Partiyası, Yurddaş Partiyası, Milli Hərəkat Partiyası və Demokrat Sahibkarlar Partiyasının Yeni Azərbaycan Partiyasına qoşulmaq barədə müraciətləri müsbət qarşılanıb. Həmin siyasi təşkilatların müraciətləri yekdilliklə qəbul edilib və flaqman partiyanın sıraları daha da möhkəmlənib.

Yeni Azərbaycan Partiyası ötən əsrin 90-cı illərinin əvvəllərində ölkədə yaranmış mürəkkəb ictimai-siyasi şəraitin gərgin bir dövründə siyasi arenaya gəlmişdir. O zaman tez-tez hakimiyyət dəyişiklikləri və daxili siyasi qarşıdurmanın dərinləşməsi nəticəsində Azərbaycanda böhran vəziyyəti qorxulu həddə çatmışdı. Nankor qonşularımız Qarabağda işğalçılıq və separatçılıq siyasəti yeridir, əzəli torpaqlarımızı ələ keçirməyə çalışırdılar. Nizami ordumuz olmadığına görə, addabudda yaradılmış özünümüdafiə dəstələri düşmənin qarşısını almaqda çətinlik çəkir, çoxlu itki verirdilər. Artıq məşum Xocalı faciəsi törədilmiş, Qarabağın baş tacı olan Şuşa və Laçın işğal edilmişdi.

Cəmiyyət ümumxalq inamına malik olan və ilk növbədə milli birliyə, vətəndaş həmrəyliyinə əsaslanaraq, ölkəni böhrandan xilas etməyə qadir olan yeni siyasi qüvvəyə ehtiyac duyurdu. Belə qətiyyətli lider yalnız dünya səviyyəli siyasətçi və dövlət xadimi Heydər Əliyev ola bilərdi. Bu səbəbdən də ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə yeni siyasi partiya yaratmaq istəyi ilə 1992-ci ilin oktyabrında ziyalılar mətbuatda ona müraciət ünvanladılar. Təbii ki, bu müraciət cavabsız qalmadı və soyuq bir gecədə, şam işığında partiyanın ilk Nizamnaməsi hazırlandı. 21 noyabr 1992-ci ildə isə Azərbaycanın əksər rayonlarından cəmiyyətin bütün təbəqələrini təmsil edən 550 nümayəndənin iştirakı ilə partiyanın təsis konfransı keçirildi və ulu öndər Heydər Əliyev YAP-ın sədri seçildi. Beləliklə, Azərbaycanın ictimai-siyasi səhnəsinə cəmiyyətdəki qüvvələr nisbətini və bundan sonra ölkədə baş verəcək hadisələrin axarını köklü və konstruktiv surətdə dəyişə bilən partiya– Yeni Azərbaycan Partiyası – xalqın partiyası meydana çıxdı.

Konstitusiya çərçivəsində öz Proqramına və Nizamnaməsinə uyğun fəaliyyət göstərən YAP hüquqi dövlət və vətəndaş cəmiyyəti quruculuğu ideyalarını həyata keçirmək, ölkədə sivil dəyərlər, demokratik prinsiplər əsasında hərtərəfli inkişafa nail olmaq, insan hüquq və azadlıqlarının təminatı, liberal dəyərlərə söykənən güclü və sosialyönümlü iqtisadiyyat, sosial ədalət və hər bir Azərbaycan vətəndaşının təminatlı rifahı uğrunda mübarizə aparan, parlament tipli sağ mərkəzçi siyasi partiya kimi fəaliyyətə başladı. Qısa bir müddətdə geniş şöhrət qazanaraq, cəmiyyətin bütün təbəqə və kateqoriyalarından olan sağlam qüvvələri öz ətrafında birləşdirə bildi, ümumxalq partiyası olmaq istiqamətində uğurlu addımlar atdı.

1993-cü ildə YAP-ın sədri ulu öndər Heydər Əliyevin Prezident seçilməsi ilə partiyanın həyatında yeni dövrün əsası qoyuldu. Partiyanın statusu yeni şəraitə uyğun olaraq dəyişdi və o, iqtidar partiyasına çevrilərək ölkənin siyasi həyatında mövqeyini möhkəmləndirdi. YAP kütləvi siyasi qüvvəyə çevrilərək ictimai həyatın bütün sahələrində tərəqqiyə nail olmaq məqsədilə yüksək fəallıq nümayiş etdirdi. 1995-ci və ondan sonrakı illərdə keçirilən parlament seçkilərində Milli Məclisə seçilən deputatların əksəriyyəti bu partiyanın üzvləri olduğundan cəmiyyətdəki nüfuzu və təsir gücü daha da artdı.

Yeni Azərbaycan Partiyasının 30 illik tarixi, əslində, müstəqil Azərbaycan dövlətinin tarixini əks etdirir. Bu partiya ümummilli lider Heydər Əliyevin müəyyənləşdirdiyi siyasi xətt əsasında Azərbaycanın inkişafını təmin edən mütəşəkkil siyasi təşkilatdır. Müstəqil Azərbaycan dövlətinin başının üstünü almış təhlükələrin ümummilli lider Heydər Əliyevin rəhbərliyi altında aradan qaldırılmasında, xaos və özbaşınalığın ləğv edilməsində, ictimai-siyasi sabitliyin bərqərar olmasında, bazar iqtisadiyyatı əsasında neft strategiyasının işlənib hazırlanmasında və reallaşdırılmasında partiya fəallarının da xidmətləri danılmazdır. Yeni əsrdə torpaqlarımızın işğaldan azad olunması üçün güclü ordu formalaşmış, ölkədə dinamik iqtisadi inkişafa nail olunmuşdur. Bu işlərin görülməsində YAP-ın müstəsna və xüsusi rolu vardır.

Partiyanın sonuncu qurultayında cənab İlhanm Əliyev gəncləşmə siyasətinin zəruriliyini də vurğulayaraq qeyd edib ki, sabahımızın sahibi olacaq gənc nəslimizin milli ruhda, milli-mənəvi dəyərlər ruhunda tərbiyə edilməsi ən başlıca vəzifələrdən biridir. Siyasi partiyalarda fəaliyyət göstərən gənc nəslə elə təlimat verilməlidir ki, onlar gələcək həyata hazırlıqlı olsunlar, ölkəmizin müstəqilliyini hər şeydən üstün tutsunlar: "Ənənələrimiz, dəyərlərimiz, yaşayış tərzimiz – bütün bunlar bizim sərvətimizdir, biz bunu itirə bilmərik və itirməməliyik. Ona görə gənc nəslin tərbiyə edilməsi çox önəmli məsələdir və burada milli-mənəvi dəyərlər ön plandadır".

Qurultaydan keçən bir il ərzində partiyanın cəmiyyət həyatında avanqard rolunun daha da artırılması, uğurların möhkəmləndirilməsi, azadlığına qovuşmuş Qarabağ və Şərqi Zəngəzurda bərpa-quruculuq işlərinin genişləndirilməsi, gənclərin məsul vəzifələrə irəli çəkilməsi və sair istiqamətlərdə böyük nailiyyətlərə imza atılıb. Hər ötən gün zəfər yolumuzda silinməz izlər buraxıb, hər gələn gün isə yeni qələbələrin müjdəçisi olub.

Bu gün YAP üzvləri bəşəriyyətin qlobal inteqrasiyasına, demokratik dünya dövlətlərinin birliyinə istiqamətlənən yola rasional yanaşır, milli demokratiyanı dərinləşdirməklə ölkəmizi öz müstəqil siyasəti, böyük mədəniyyəti ilə dünya inkişafının öncül sıralarına çıxarırlar. Bu müqəddəs missiyanın layiqincə həyata keçirilməsi üçün Prezident İlham Əliyevin ətrafında sıx birləşən xalqımız, sözün əsl mənasında, tarix yazır. Bu, müstəqil Azərbaycanın tərəqqi tarixidir, o cümlədən, elə YAP-ın şərəf tarixidir. Yüz minlərlə soydaşımız bu partiyanın sıralarında olmaqdan qürur duyur, zamanın çağırışlarına layiqincə cavab vermək üçün sədaqətlə çalışır. Siyasi əqidədaşların, həmməsləklərin birgə fəaliyyəti ölkənin, xalqın daha xoşbəxt gələcəyinə xidmət edir.

***Əli NƏCƏFXANLI,***
***"Xalq qəzeti"***